**UOT 93/94**
**https://doi.org/10.59849/2218-4783.2024.2.59**

**AYTƏN İMANOVA**

# ABBASQULU AĞA BAKIXANOVUN MAARİFÇİLİK GÖRÜŞLƏRİ (AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun materialları əsasında)

*Hər bir xalqın azadlıq istəyi, tərəqqiyə meyli onun özünü dərk etməsi prosesində qərarlaşır və müəyyən ideyalar əsasında aydın istiqamətə yönəlir. Bu prosesin zəruri ifadəsi kimi yaranan milli ideal və onun gerçəkləşməsinə xidmət edən ideyalar getdikcə milli hərəkatı şüurlu cəhətdən istiqamətləndirməyə təkan verir. Bu baxımdan XX əsrin əvvəllərində alovlanan milli istiqlal mübarizəsinin formalaşmasında Rusiya işğalından sonra, XIX əsrin əvvəllərində Azərbaycanda başlanan mədəni-maarifçilik hərəkatının mühüm rolu olmuşdu.*

*Son dövr araşdırmalarına görə Azərbaycan milli-azadlıq hərəkatının və milli ideologiyasının formalaşmasının başlanğıc dönəmi kimi XIX əsrin son rübündə Azərbaycanda "Əkinçi"nin nəşri ilə türkdilli mətbuatın əsasının qoyulduğu dövr qəbul edilir. Fikrimizcə, milli oyanış ideyalarının formalaşması xalqın etnik kimliyini tanıması, tarixi keçmişini tədqiq etməsi ilə başlandığı üçün "Əkinçi"nin nəşrini artıq başlanmış milli oyanışın ifadəsi kimi qəbul etmək olar. Çünki bəhs etdiyimiz dövrdə Azərbaycan Rusiyanın müstəmləkəsi olduğu üçün milli oyanış ideyaları çətinliklə inkişaf edir və təbliğ olunurdu. Əslində bütün maneələrə rəğmən "Əkinçi"dən 35 il öncə A.Bakıxanovun Azərbaycan tarixşünaslığının əsasını qoyan "Gülüstani-İrəm" əsərini (1841), ümumiyyətlə A.Bakıxanovun bütün yaradıcılığı və fəaliyyəti mədəni-maarifçilik hərəkatının, milli oyanış ideyalarının təşəkkülünün ilkin dövrü kimi qiymətləndirilə bilər.*

*Məqalədə A.Bakıxanovun AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda qorunan şəxsi arxivinin materiallarına əsasən ədibin maarifçilik fəaliyyəti işıqlandırılmışdır.*

**Açar sözlər:** *maarifçilik, "Gülüstani-İrəm", şəxsi arxiv, müdavim, müəllim.*

**Giriş.** 1552-ci ildə rus çarı IV İvanın Qazan xanlığını ələ keçirməsi ilə qitənin şimal hissəsində türklərin yaşadıqları ərazilərin Rusiya dövləti tərəfindən işğalına başlanıldı. Bu hadisə həm türk xalqlarının, həm də Rusiyanın tarixində yeni bir dövrün əsasını qoymuş oldu. Rusiya tarixində imperiya, türk xalqları tarixində isə müstəmləkə əsarəti dönəmi başladı. Rusiyanın türk xalqlarının torpaqlarına 1880-ci ilə kimi davam edən hərbi yürüşləri dövründə işğal edilən ölkələr sırasına Azərbaycan ərazisi də daxil oldu. Azərbaycan ərazisinə 1796-cı ildə baş tutan ilk yürüş Qazıkumuk, Dərbənd, Bakı və Şirvan xanlıqlarının Rusiya tərəfindən işğal olunması ilə nəticələndi. 1804-cü ildə isə Gəncənin işğalı ilə başlayan ikinci yürüş, İran və Rusiya arasında imzalanan 1813-cü il Gülüstan və 1828-ci il Tükmənçay anlaşmaları ilə etnik bir vahid olan Azərbaycanın iki hissəyə bölünməsinə səbəb oldu. Azərbaycanın Rusiya tərəfindən işğalı ilə bağlı Məhəmməd Əmin Rəsulzadə yazırdı: *"Bu zamanda rus militarizmi həmlə edərək Azərbaycanın bir qitəsini digərindən ayırdı, möhtərəm şəhid Cavad xan ilə İbrahimxəlil xan, Mirhəsən xan və sair bu kimi qəhrəmanların rəşadət və müqaviməti istilanı qurtara bilmədi"* [5, s. 394].

**Əsas məzmun.** Azərbaycanın Rusiyanın müstəmləkəsi olduğu dönəmi şərti olaraq iki dövrə ayıra bilərik: 1) 1803-1917-ci illər Şimali Azərbaycanın çar Rusiyasının işğalı altında olduğu dövr; 2) 1920-ci ilin aprel ayından 1991-ci ilin 18 oktyabrına kimi Sovet işğalı dövrü.

XIX əsrin sonlarına doğru Azərbaycanda rus işğal rejiminin hakimiyyəti əsaslı surətdə möhkəmlətmiş oldu. Müstəmləkəçi rus imperializmi tərəfindən zəbt olunan Azərbaycan xammal bazarına çevrilmişdi. Bu azmış kimi çarizm qarşısına türk xalqlarının milli-mədəni

tarixini və mədəniyyətini məhv etməyi də məqsəd qoymuşdu. Baş verən siyasi, siyasi-coğrafi, ictimai-iqtisadi dəyişikliklər bu dövr mədəniyyətinin bütün sahələrinə önəmli təsir etdi. Müstəmləkə xalqlarının ədəbiyyat və incəsənət, siyasi və din xadimləri cəmiyyətdə yer almış geriliyi aradan qaldırmaq üçün bədii fikir vasitələrini yaşadıqları dövrün yeni tələblərinə uyğunlaşdırmağa məcbur idilər. Bu səbəbdən bədii fikrin nümayəndələri millətin maariflənməsində fəal surətdə iştirak etməyə başladılar. Çünki onların qarşısında bu günə kimi duran əsas vəzifələrin sırasına (gerilik və cəhalətlə mübarizə aparmaq, xalqın savadlanmasına çalışmaq və s.) daha biri də əlavə olunmuşdu. Bu da xalqı yadelli işğala qarşı mübarizəyə səfərbər etmək idi. Bu da öz növbəsində bədii təfəkkürün yenilənməsini və genişləndirilməsini zəruri edirdi. Ümumiyyətlə, XIX-XX yüzilliklərin nəzərdən keçirilən zaman kəsiyi ədəbi-bədii və mədəni inkişafın çökdüyü keçid dövrüdür. XIX əsrin sonlarına doğru dünya mədəniyyəti tarixində yeni üslubda bədii təfəkkürün yaranmasının əsas səbəbi cəmiyyətdə hökm sürən bədbinlik və ümidsizlik idi [11, s. 3-4].

XIX əsr və XX əsrin əvvəllərində Rusiya imperiyasının müstəmləkə sisteminə qatılmış bütün türk xalqları kimi, Şimali Azərbaycan torpaqları tarixi-mədəni inkişafın yeni dövrünə qədəm qoymuş oldular. Çünki məhz bu dönəmdə Azərbaycan çar Rusiyası ilə eyni zamanda, Rusiya dövləti isə məhz Azərbaycanın işğalından sonra kapitalizm ictimai-iqtisadi quruluşuna daxil olurdu. Çünki bu dönəmə kimi Rusiya sənaye iqtisadiyyatına malik olmadığından Avropa ilə rəqabət edə bilməzdi [8, s. 50]. Rusiyada doğan yeni siyasi-ictimai şəraitin təsiri altında, xüsusilə Avropa kapitalı Bakıya girdikdən sonra neft sənayesi canlanmış və yeni sənaye burjuaziyası doğmağa başlamışdı [6, s. 18]. İqtisadiyyatın daim inkişaf edən tələbləri, dünya bazarındakı rəqabət cəmiyyətin müxtəlif təbəqələri arasında Qərbə maraq oyadırdı. Bu bütün Qafqazın, o cümlədən Şimali Azərbaycanın cəmiyyətinə də öz təsirini göstərirdi. Bu həm də Qərb mədəniyyətinin, elminin, ictimai münasibətlər sisteminin və bədii təfəkkür sisteminin cəmiyyətin ziyalı təbəqəsinə sirayət etməsi demək idi.

Cəmiyyətin ziyalı təbəqəsi bütün tarixi dövrlərdə millətin yüksəlişinə və milli varlığı qorumağa çalışmışlar. Yaranmış yeni siyasi şəraitdə ziyalıların əsas məqsədi işğaldan sonrakı bəzi müsbət sayıla biləcək ictimai-tarixi şərtlərdən cəmiyyətin tərəqqisi üçün istifadə etmək, keçmişin milli dəyərlərini bərpa etmək, cahillik və mövhumatdan qurtulmaq idi. Çünki Azərbaycan xalqına imperiyanın göstərdiyi mənəvi təzyiq daha ağır idi. Bir zamanlar Şərqin elm, ədəbiyyat və sənət ocaqlarından biri hesab edilən Azərbaycanda rus işğalı ilə mədəni həyat və təfəkkür dünyasının səviyyəsi enmişdi. Qafqazın digər qeyri-türk xalqlarından fərqli olaraq, Azərbaycan xalqı tarixini, milli kimliyini, dinini, adət-ənənəsini itirmək təhlükəsi ilə üz-üzə qalmışdı. Yeni anadilli məktəblərin açılmasının qarşısı alınırdı. Türkdilli mətbuatın sözü belə keçə bilməzdi. Fəaliyyətdə olan anadilli məktəblər, açılan qəzetlər hökumətin daimi təqibi və təzyiqi altında idilər. Bu səbəblərdən Azərbaycanın maarifçi ziyalıları mənsub olduqları millətin gələcəyi uğrunda taleyin qismətinə deyil, tarixinə dayanaraq fəaliyyət göstərirdilər [8, s. 59].

Azərbaycanda maarifçilik fəaliyyət sahəsi kimi yaranaraq ideya cərəyanına çevrilmişdir. Azərbaycan maarifçilərinin əsərlərinin əsas mövzusu Azərbaycan və onun üzləşdiyi problemləri olmuşdur. Bu səbəbdən həmin dövr mütəfəkkirlərinin fəaliyyətini sadəcə müşahidəçi deyil, fəal təsiredici və dəyişdirici kimi də xarakterizə etmək olar. Maarifçi ziyalıların yaradıcılığı və fəaliyyəti sayəsində milli özünüdərk prosesi başladı və milli ideyalar yarandı. Milli şüurun formalaşması isə müstəmləkə zülmünə qarşı, torpağın suverenliyi uğrunda mübarizə üçün çox vacib idi. Ona görə də XIX əsr bədii təfəkkürü fikir tarixinin ilk dönəmi kimi qəbul

edilə bilər. Bu dövr mütəfəkkirlərinin ideyaları XX əsrin əvvəllərində Azərbaycan xalqının milli özünüdərk etdiyi ideologiyasını formalaşdırmış, xalqın öz milli varlığını qəbul etməsi üçün zəmin yaratmışdır. Bu səbəbdən də artıq XIX əsrin sonuna doğru Azərbaycan ümummilli ədəbi dilinin təşəkkülü başa çatmış və demokratizm bir ideologiya kimi formalaşmışdı.

XIX əsrdə Rusiya işğalından sonrakı dövrdə yenilənmə cərəyanının ilk nümayəndələrindən Abbasqulu ağa Bakıxanov, Mirzə Fətəli Axundzadə, Seyid Əzim Şirvani, Həsən bəy Zərdabi və bu kimi digər görkəmli mütəfəkkirlərin adlarını çəkmək olar. Bu şəxsiyyətlər Qərb ədəbi-mədəni irsindən faydalanaraq milli mədəni tariximizdə yeni elmi-fəlsəfi, ictimai-siyasi və ədəbi-bədii cərəyanlar və əsərlər yaratmışlar. Adları qeyd olunan mütəfəkkirlərimizin elm aləminə artıq tanış olan əsərləri tədqiqatçılarımız tərəfindən müxtəlif aspektlərdən araşdırılmış, elmi dövriyyəyə daxil edilmişdir.

Bu baxımdan dövrün görkəmli maarifçi mütəfəkkirlərindən A.Bakıxanov, M.F.Axundov, H.Zərdabi, S.Ə.Şirvaninin ədəbi yaradıcılıq nümunələri ilə yanaşı, Əlyazmalar İnstitutunun xəzinəsində qorunan şəxsi arxivlərinin materialları da xüsusi maraq doğurur. Əlyazmalar İnstitutunda saxlanılan şəxsi arxivlərin özəlliyi ondadır ki, bura təkcə görkəmli ziyalılarımızın ədəbi yaradıcılıq nümunələri deyil, həm də müxtəlif xarakterli sənəd və materiallar daxildir. Bu materiallar (xatirələr, məktublar, qeydlər, təliqələr, ərizələr, protokollar, çıxarışlar və s.) əsasında ziyalılarımızın milli məktəblərin, milli ədəbiyyat nümunələrinin, milli tarixi əsərlərin, milli mətbuatın yaranması uğrunda apardığı mücadiləni sistemli olaraq izləmək mümkündür. Onların bu mübarizəsi maarifçiliyin inkişafında və Azərbaycan türkləri arasında milli şüurun yayılmasında önəmli rol oynamışdır.

Rus hakim dairələrinin qarşılarına qoyduqları əsas məqsəd yerli əhalini çox da qorxutmadan Qafqaz türkləri arasındakı istiqlal fikrinin kökünü kəsmək, digər iki qonşu İslam ölkəsinin – İranın və Türkiyənin Azərbaycan üzərindəki siyasi və dini təsir imkanlarını birdəfəlik aradan qaldırmaq idi [1, s. 230]. Bu məqsədlə Azərbaycan xalqına tarixinin unutdurulması üçün maddi-mədəni tarixi abidələrin məhv edilməsi, məscidlərdən müxtəlif təsərrüfat məqsədləri üçün istifadə edilməsi, müxtəlif qədim tikililərin ümumiyyətlə sökülməsi nəzərdə tutulurdu. Halbuki "bir millətin öz tarixini bilməsi qədər qüvvətli bir ittihad və təməddün amili təsəvvür oluna bilməz" [5, s. 484]. Fəaliyyətdə olan anadilli məktəblər, açılan qəzetlər hökumətin daimi təqibi və təzyiqi altında idilər. Çünki "dil milliyyətin hamısını təşkiletməsə də, yüzdə doxsanını vücuda gətirən böyük bir amildir. Bir milliyyəti məhv edib aradan götürmək qəsdində olan siyasilərdə əsil bunun üçündür ki, təmsil (assimilyasyon) əməliyyatı icra edərkən ən birinci fikirlərini dilə verər və ən əvvəl bir millətin dilini yaddan çıxarmağa səy edərlər" [5, s. 476]. Ruhani idarələri belə polisin nəzarəti altında idilər, ruhani olmaq üçün belə rus dilini bilmək tələb olunurdu [4, s. 90]. Sadalanan bütün bu faktlar və onları aradan qaldırmaq uğrunda XIX əsr maarifçi-ziyalılarımızın fəaliyyətləri arxiv materiallarında tam əks olunmuşdur.

Xalqın təfəkkürünün inkişafında ilk addım isə millətin özünü dərk etməsidir. Bunu reallaşdırmaq üçün millətə özünü tanıdan vasitəni təqdim etmək lazımdır. Abbasqulu ağa Bakıxanov (1794-1846), Mirzə Adıgözəl bəy (1769-1854), Mirzə Camal Qarabaği (1784-1860), Seyid İbrahim Gəncəvi (1815-1865) və başqa tarixçilərin əsərləri bu baxımdan əvəzsiz vasitələrdir. Bu əsərlərin hər birində Azərbaycan və Qafqaz tarixinin ayrı-ayrı dönəmləri müxtəlif tarixi qaynaqlardan qaynaqlanaraq araşdırılmışdır [9, s. 176]. Abbasqulu ağa Bakıxanovun (1794-1846) Azərbaycan tarixi haqqında yazdığı "Gülüstani-İrəm" əsəri Azərbaycan

tarixşünaslığının ilk elmi əsəri olmaqla bərabər, həm də Azərbaycan maarifçiliyinin millətə özünü tanıtmaq yolunda atdığı ilk addım idi. Çünki İ.K.Yenikolopovun yazdığı kimi, "Abbasqulu ağa Bakıxanov "Gülüstani-İrəm" əsərinə yazdığı giriş sözündə bu əsəri yazmaqda əsas məqsədini açıqlamışdır. Onun bütün məqsədi ikiqat zülm – feodalizmin və yadelli işğalın istismarı altında inləyən vətəninə və xalqına olan sevgisini və patriotluğunu ifadə edir" [12]. Belə hesab edilir ki, Bakıxanovun "Gülüstani-İrəm" əsəri açıq şəkildə Azərbaycanın qədim əhalisinin etnik mənşəyini və dilini əsasən türk amili üzərində izah etmişdir. Bu isə müstəmləkəçiliyə etiraz olaraq fikir savaşı demək idi [3, s. 81].

Bu səbəbdən də istər A.Bakıxanovu Azərbaycan maarifçilərindən biri kimi xarakterizə edən konsepsiyanın (H.Hüseynov, Z.Göyüşov), istərsə A.Bakıxanovun fəaliyyətinin maarifçilik hərəkatına heç bir aidiyyəti olmadığını iddia edən konsepsiyanın (Ə.Əhmədov) bir elmi əsası yoxdur. Belə ki, Azərbaycan sovet tarixşünaslığında və ondan qaynaqlanan bəzi sonrakı tədqiqatlarda Azərbaycan maarifçilik tarixinin M.F.Axundzadə ilə başladığı bildirilir. Lakin fikrimizcə, "Azərbaycançılıq milli ideologiya və ədəbi-estetik təlim kimi" əsərində A.Bakıxanovu Azərbaycanşünaslığın, deməli həm də maarifçiliyin banilərindən biri hesab edən Sona xanım Vəliyeva kimi tədqiqatçılar tamamilə haqlıdırlar.

A.Bakıxanov xalqımızın milli tarixinə həsr edilmiş ilk elmi əsər sayılan "Gülüstani-İrəm"i işğal edilmiş Azərbaycanın siyasi tarixinə, azadlıq mübarizəsinə, mədəniyyətinə həsr etmişdi. Azərbaycanın şimal torpaqlarının Rusiya tərəfindən işğalından sonra keçən qısa bir dövrdə milli tarixin bütün xüsusiyyətlərinin xalqa çatdırılması, bilavasitə millətin milli şüurunun oyanmasına xidmət etmək idi. Məhz bu səbəbdən də "Gülüstani-İrəm" əsəri 1841-ci ildə yazılmasına baxmayaraq ilk dəfə 1926-cı ildə işıq üzü görmüşdür. A.Bakıxanovun fəaliyyətində milli məsələnin mühüm yer tutmasının göstəricisi təkcə bu əsəri deyil.

AMEA M.Füzuli adına Əlyazmalar İnstitutunda Azərbaycan elmi tarixində müstəsna xidmətləri olan görkəmli maarifçi mütəfəkkir Abbasqulu ağa Bakıxanovun şəxsi arxivinin bəzi nümunələri qorunur. "Bakıxanov müasirlərinin xatirələrində" adlı əlyazmada [12]. K.Yenikolopov tərəfindən həmin dövrün tanınmış Avropa və rus ziyalılarının Bakıxanov haqqında qiymətli fikirləri toplanmışdır. Bildiyimiz kimi, Abbasqulu ağa Bakıxanov o dövrün Azərbaycanlı ziyalıları arasında rus və Avropa mədəni-maarifçi mühiti ilə yaxından və bilavasitə tanış olan, Rusiya və Avropaya səyahət etmiş ilk və yeganə nümayəndəsi idi. A.Bakıxanovun həyat və fəaliyyətinin müəmmalı, hələ də tam açıqlıq gətirilməyən səhifələrindən biri də məhz onun bu səyahəti ilə bağlıdır. "Bu səyahətə onun Avropa maarifçiliyi ilə yaxından tanış olmaq arzusunun, yoxsa Y.Ozertskovskinin yazdığı kimi xarici işlər nazirliyində xidmətinin, yaxud Avropada "Fars qrammatikası" əsərini nəşr etdirmək istəyinin səbəb olduğu dəqiq deyildir" [14]. Çünki Yenikolopovun fikrincə, "bu müddət ərzində Varşavada yaşamağa davam edən A.Bakıxanov, Qafqaz canişini baron Rozenin idarəsində onu gözləyən arzuolunmaz bir şəraitə geri dönməmək üçün özü üçün qərargah həkimindən sağlamlıq haqqında arayış əldə etmişdi" [14]. Ancaq bu səyahətin ən müsbət tərəfi o idi ki, A.Bakıxanov Belinski, Karl Genrix Kox (1809-79), Y.N.Ozersovski (1804-1864), V.K.Küxelbeker (1797-1846), A.A.Bectujev-Marlinski (1797-1837), sürgündə olan polyak şairi Lada-Zablotski (1809-1847) və başqaları ilə yaxından tanış ola bilmişdi. Rus və Avropa ədəbi-mədəni mühiti A.Bakıxanovun mədəniyyətini, elmini, dünyagörüşünü olduqca yüksək qiymətləndirmişdi. Sergey Puşkin Peterburqdan qızına yazdığı 1834-cü il 25 may tarixli məktubunda xüsusi olaraq qeyd edirdi ki, "bu günlərdə Aleksandr bizə Abbas ağanı təqdim etdi. Varşavadan öz məktubu ilə gələn Abbas əvvəlcə

Aleksandrla görüşmüşdü. Aleksandr ona heyran olmuşdu" [14]. Yenikolopov belə hesab edirdi ki, Abbasqulu ağa Bakıxanovun Puşkinin ailəsində qəbul edilməsi, məşhur şairlə və dostları ilə görüşləri onun qabaqcıl ideyalarının göstəricisidir. Fransız səyyahı Syuzanne yazır ki, "o yorulmadan, əzmlə ömrünü Qafqazın bütün xalqlarının tarixi mənşəyini araşdırmağa həsr etmişdir". S.A.Puşkin qeyd edirdi ki, "Qafqazın müsəlman əyalətlərinin sakinlərindən süvari hissələrinin formalaşmasında rolu böyük olmuşdur". "...Onun iştirakı ilə 4 müsəlman süvari polku yaradılmışdı..., bu xidmətinə görə də o, I dərəcəli Anna ordeni ilə təltif edilmişdi (3.06.1829)" [14].

Rus maarifçisi Belinski 1841-ci ildə yazırdı ki, "hər düha dövrünün tələblərini yerinə yetirir, öz fəaliyyəti ilə həmin zamanın ruhunu əks etdirir". Onun sözlərinə görə, A.Bakıxanov müasiri olduğu dövrdə belə "cəmiyyətin inkişafının başlıca hərəkətverici qüvvəsi olaraq xalqın maariflənməsini və təfəkkürünün inkişaf etməsini qəbul edirdi" [12].

Bu baxımdan ədibin şəxsi arxiv materialları arasında yeni məktəb layihəsi xüsusi maraq doğurur. Təəssüf ki, bu layihə indiyə qədər A.Bakıxanovun maarifçi fəaliyyətinin bir göstəricisi kimi tədqiqata cəlb edilməmişdir. Tədqiqatçılardan H.Əhmədov [2; 7, s. 314-318] maarifçilik fəaliyyətində anadilli məktəblərin yaranmasında rolunu qeyd edərkən əsasən Azərbaycan dilində dərsliklərin tərtib olunması, "Fars dilinin qrammatikası" əsərinin əhəmiyyətindən danışmışlar. Yəqin ki, Bakıxanovun məktəb layihəsi qəbul edilmədiyi və həyata keçirilmədiyi üçün tədqiqatdan kənarda qalmışdır. Lakin 1845-ci il avqust ayının 3-də Qafqaz canişini Vorontsovun dəftərxana rəisi Safonovun A.Bakıxanova 31 iyul tarixli 1160 saylı "Tiflisdə şiə məzhəbindən olan müsəlman uşaqları üçün ilk məktəbin təsis edilməsi" layihəsini göndərərək "bu sahə haqqında təcrübə və geniş biliklərə malik olduğu üçün" layihəni "ətraflı olaraq incələyib öz fikrini bildirməsini" xahiş etdiyi sənədlərdə öz əksini tapmışdır [13]. Yenikolopov qeyd edir ki, layihənin əsli Gürcüstan Mərkəzi Dövlət Tarix Arxivində F. 30, № 596 şifrəsi altında saxlanılır Yəqin ki, bu müasir Gürcüstan Milli Tarix Muzeyinin arxividir. Qeyd etmək lazımdır ki, bu layihənin o zaman yeni xidmətə başlayan M.F.Axundov tərəfindən tərcümə edildiyi bildirilir.

Bildiyimiz kimi, Qafqazda ilk rus məktəbi 1802-ci ildə Tiflisdə açılmışdır. Bunun ardınca, XIX əsrin 30-cu illərində ruslar Azərbaycanın müxtəlif şəhərlərində də eyni tipli məktəblər açmışdılar. Lakin rusların tətbiq etdiyi təhsil sistemi əhalinin milli maraqlarına cavab vermədiyindən xalq bu tipli məktəbləri uşaqlarını göndərməkdən imtina edirdi. Buna görə də A.Bakıxanov yeni məktəb layihəsini hazırlamış və təsdiq olunması üçün lazımi qurumlara təqdim etmişdir. Bu layihənin yerli əhalinin maariflənməsi üçün vacib olduğunu açıqlayan ədib xüsusi olaraq vurğulayırdı ki, "Cənubi Qafqazı himayə edən qüdrətli Rusiya hökuməti yəqin ki, xalqların öncə mənəvi dünyasını fəth etməyi düşünməlidir. Çünki məcburi itaət uzun sürə bilməz. İlk fürsətdə əvvəlki hisslər geri dönəcək. İnsanları bəzi iltifatlar və mükafatlarla da özünə bağlamaq mümkün deyil. İnsanları yeni qanunlara bağlayan mühüm məqamlar vacibdir" [15, s. 1]. Bu mühüm məqamlardan biri kimi A.Bakıxanov tərəqqini və maariflənməyi görürdü. Bunun da əsas yolu kimi xalqın öz arasından yeni ziyalı təbəqənin yetişdirilməsini vacib sayırdı. O, yazırdı ki, "xalq maarifləndikcə, onların arasında hökumətə xidmət edəcək tərəqqipərvər insanlar da artacaq. Onlar da öz növbəsində dövlətin ümumi rifah üçün çalışdığını təbliğ edəcəklər". Daha sonra o qeyd edirdi ki, "...müsəlmanlar arasında maariflənmə artdıqca, iğtişaşlar azalacaq..., bu xalqın ruslarla yaxınlaşmasına səbəb olacaq..., bu da hər iki xalqın xeyrinədir". Sonda o xüsusi olaraq vurğulayırdı ki, "maariflənmə yolunda ilk addım isə məktəbin təsis edilməsidir" [15, s. 3].

Bakıxanov məktəb layihəsini 1832-ci il fevral ayının 20-də tərtib etmişdi. Layihəyə görə ilk müsəlman məktəbi Bakı şəhərində açılmalı idi. Bakıxanovun fikrincə, Bakı şəhəri həmin dövr üçün ticari və mədəni baxımdan tərəqqi etdiyi üçün daha əlverişli mövqe tuturdu. Layihəyə görə məktəb üç sinifli olmalı idi. Şagirdlərin yaşı, müvafiq olaraq 8-12-15 nəzərdə tutulurdu. Dərslər hər bir sinifdə ikisi müsəlman, biri rus olmaqla üç müəllim tərəfindən tədris olunmağı nəzərdə tutulurdu. Layihənin müddəalarına görə, müsəlman müəllimlər I sinifdə əlifbanın və dinin əsaslarını tədris etməli, fars və tatar dillərində müxtəlif hekayələrin qiraəti ilə məşğul olmalı idilər. II və III siniflərdə isə şagirdlər artıq yazını tam mənimsəməli, fars qrammatikası və dilini mükəmməl öyrənməli, müxtəlif dünyəvi elmlərə yiyələnməli idilər. I sinifdə əlifba (rus, fars və tatar), lüğət, danışıq və yazı; II sinifdə – riyaziyyat, qrammatika, ritorika; III sinifdə – coğrafiya və tarix dərsləri tədris edilməli idi. A.Bakıxanov haqlı olaraq, hesab edirdi ki, "fars dilinin tədrisi vacibdir, çünki o Asiyanın əksər hissəsinin əsas yazı sistemidir və bütün kitablar, bizim diyarın sakinləri arasında yazılı əlaqələr bu dil üzərindən yürüdülür, həm də ona yiyələnən hər bir şəxs, xəta ilə olsa da, öz danışdıqları tatar dilində də yaza bilərlər" [15, s. 4]. Müəllimlərdən başqa məktəbə, üçü müsəlman, ikisi rus olmaqla, beş nəzarətçinin təyin olunması lazım idi. A.Bakıxanov müsəlman müəllim və nəzarətçiləri təyin etmək səlahiyyətinin ona verilməsini istəyirdi.

Layihədə məktəbin dərslik və başqa tədris materialları, ərzaqla təminatı məsələlərinin həlli öz əksini tapmışdı. Bakıxanov dərslik qismində ilk növbədə müsəlman müəlliflərin kitablarını, özünün müəllifi olduğu lüğət və danışıq kitabçasını təklif edirdi.

Göründüyü kimi, Bakıxanov bütün məsələlərdə üstünlüyü və öncüllüyü müsəlman (yəni türk) ziyalılarına verirdi. Özünün əsas vəzifəsini belə ifadə etmişdi: "Mən isə əsas vaxtımı bu təhsil müəssisəsində keçirməli; öz əsərlərimlə hər iki dilin qarşılıqlı nisbətini göstərməklə, onların öyrənilməsinə kömək etməliyəm; ümumi qayda-qanuna nəzarət etməliyəm..." [15, s. 9].

A.Bakıxanov ümid edirdi ki, bu məktəbin müdavimləri gələcəkdə öz istəkləri ilə hərbi xidmətə yönəldilə, Tiflisdə və Rusiyada, yaxud yeni açılacaq məktəbdə, onun yanında təhsillərini davam etdirə bilərdilər. Bakıxanov məktəb layihəsinin ciddi maneələrlə üzləşəcəyini gözəl bilirdi. Buna görə də hər vəchlə layihənin hər bir müddəasında onun məhz Rusiya dövləti üçün müsbət tərəflərini açıqlayır və vurğulayırdı. O yazırdı ki, "müdavimlərinin sayı çox olmasa da bu məktəbin təsis edilməsi dövlətin müsəlman qayda-qanununu olduğu kimi qoruduğunu xalqa nümayiş etdirəcəkdi" [15, s. 5].

A.Bakıxanov təklif etdiyi məktəb layihəsində yeni məktəbin təsisi prosesində bütün məqamları incəliklərinə qədər nəzərə almışdı. Məktəbə 42 şagird qəbul edilməli idi. Onlardan 18-i məktəbin yataqxanasında, 24-ü isə valideynləri və ya məktəbin yaxınlığında yaşayan qohumları ilə yaşamalı idilər. Bu təyin olunan zaman şagirdlərin məktəbə vaxtında yetişməsini təmin etmək üçün vacib idi. Çünki, "hər valideyn övladını başqa şəhərdə oxutdurmaq imkanına malik deyildi. Ona görə də şagirdlərin maddi imkanı olmayan hissəsini daimi yaşayış yeri ilə təmin etmək zəruri idi" [15, s. 6]. Bu isə o demək idi ki, A.Bakıxanov təkcə varlı təbəqənin deyil, imkansız ailələrin də övladlarının təhsil almasını arzu edir və bu haqda fikirləşirdi. Bakıxanov bir maarifçi kimi "xalq kütlələrinin, başlıca olaraq, kəndlilərin mənafeyi uğrunda çıxış edirdi" [10] və onun üçün "milli məsələ xüsusi əhəmiyyət kəsb edirdi" [10]. Milli məsələ təkcə maarifçilik deyil, bütün sahələrdə A.Bakıxanov üçün vacib amil idi. S.L.Puşkin qeyd etdiyinə görə, "Bakıxanovun Qafqazın müsəlman əyalətlərinin əhalisi arasından ordunun nizamsız süvari dəstələrinin yaradılmasında böyük rolunun olduğu məlumdur" [10].

**Nəticə.** Beləliklə, XIX əsri Azərbaycanın həm siyasi, həm də fikir tarixini ən təzadlı dönəmi kimi qəbul etmək olar. Bu yeni, Azərbaycanın parçalandığı və xalqın iki fərqli siyasi-ictimai mühitdə yaşamağa məhkum olduğu dövrdə millətin maariflənməsi üçün mücadilə edən ziyalıların yenilənən ictimai-mədəni görüşləri mürəkkəb və fərqli yanaşmaların mövcudluğu ilə səciyyələnirdi. Fikrimizcə, XIX əsrin ictimai-siyasi və ədəbi-mədəni mühitinə münasibətdə fərqli və təzadlı fikirlərin səbəbi də məhz buradan qaynaqlanır. Buna görə də müasir günümüzün tələblərini nəzərə alaraq, bu istiqamətdə yeni və obyektiv tədqiqatların aparılması vacib və aktualdır. Çünki qloballaşan dünyada milli mənliyimizi qoruyub inkişaf etdirmək, gənc nəslin nümayəndələri arasından düşünən milli zəkaların yetişdirilməsi olduqca vacibdir. Öz növbəsində, siyasi tariximizin öyrənilməsində xüsusi yer tutan və milli ideologiyanın əsas prinsipləri olan milli özünüdərk və oyanış ideyalarının öyrənilməsinin də müstəsna əhəmiyyəti vardır.

A.Bakıxanovun təklif etdiyi yeni məktəb layihəsi təbii ki, çar mütləqiyyəti tərəfindən qəbul edilmədi. Buna baxmayaraq, onun nəzəri və yenilikçi ideyaları Azərbaycanda və Qafqazda milli ideologiyanın təşəkkül prosesinə və Qərb mədəniyyətinin müsbət tərəfləri ilə ziyalıların tanış olmasına təkan verdi. Fikrimizcə, "Gülüstani-İrəm" əsəri ilə vətənpərvərlik hisslərini alovlandıran A.Bakıxanov, yeni üsullu məktəb layihəsi ilə xalqının maariflənməsi ilə yanaşı, xəlqilik və azadlıq ideyalarını da səsləndirmişdir.

## ƏDƏBİYYAT

1. Cəfəroğlu Ə. Seçilmiş əsərləri. Bakı: Mütərcim, 2008, 580 s.
2. Əhmədov H. XIX əsr Azərbaycan məktəbi. Bakı, 2006, 580 s.
3. Ələkbərli F. Milli ideologiya probleminə tarixi-fəlsəfi baxış. Bakı: Azərbaycan Milli Elmlər Akademiyası, Fəlsəfə, Sosiologiya və Hüquq İnstitutu, 2011, 408 s.
4. Əliyarlı S. Milli hərəkatımızın ilkin dönəmləri. Tariximiz. Açıqlanmamış mövzuları ilə. Bakı: Mütərcim, 2012, 557 s.
5. Rəsulzadə M.Ə. Əsərləri (1918-aprel 1920) / Araşdırıb topl., ərəb əlifbasından latın əlifbasına çevirən, ön söz. müəl., lüğətin tərtibi Ş.Hüseynov; transliterasiya red. Ş.Vəliyev, S.Xalidoğlu. Bakı: Qanun, 2014, 564 s.
6. Məmmədzadə M.B. Milli Azərbaycan hərəkatı. Bakı: Nicat, 1992, 246 s.
7. Vəzirova İ. Azərbaycan maarifinin banisi – A.A.Bakıxanov / Qafqaz tarixinin aktual məsələləri: Beynəlxalq konfransının materialları. H. 2, Gəncə, 2015, s. 314-318.
8. Baykara H. Azerbaycanda Yenileşme Hareketleri XIX Yüzyıl. Ankara: Türk Kültürünü Araştırma Enstitusu, 1966, 200 s.
9. Türkiye Dışındakı Türk Edebiyatları Antoloijisi (Nesir-Nazım). III c.: Azerbaycan XIX-XX. yy Türk Edebiyatı (1920 yılına kadar), Ankara: Kültür Bakanlığı, 1993, 419 s.
10. А.К.Бакиханов в воспоминаниях современников. AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun şəxsi arxiv fondu: F. № 1, s.v. 14.
11. Загидуллина Д.Ф. Модернизм в татарской литературе первой трети XX века. Казань: Татарское книжное издательство, 2013, 205 с.
12. Из предисловия «Гюлистани-Ирем». AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun şəxsi arxiv fondu: F. № 1, s.v. 13.

13. Об учреждении в Тифлисе училища для воспитания мусульманских детей Алиевой секты (3 августа 1845 года). AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun şəxsi arxiv fondu: F. № 1, s.v. 12.
14. Поездка Бакиханова в Петербург. AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun şəxsi arxiv fondu: F. № 1, s.v. 11.
15. Проект учреждения Мусульманского училища, составленный майором Аббас Кулиагою Бакихановым (20 февраля 1832 года). AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun şəxsi arxiv fondu: F. № 1, s.v. 7.

***AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu***
***E-mail: imanova_ayten@hotmail.com***

**Aytan Imanova**

## EDUCATIONAL VIEWS OF ABBASGULU AGA BAKIKHANOV (based on materials of the Institute of Manuscripts of the National Academy of Sciences, named after Muhammad Fizuli)

The desire of each nation for freedom and progress is formed in the process of its self-knowledge and, based on certain ideas, directs the national movement. The ideas of national self-awareness, which arose as a natural manifestation of this process and serve its implementation, further, contribute to the conscious leadership of the national movement. From this point of view, the cultural and educational movement of Azerbaijan played an important role in the formation of the struggle for national independence at the beginning of the 20th century after the seizure of these territories by the Russian Empire, more precisely at the beginning of the 19th century.

According to the latest research, the initial period of the formation of the national liberation movement and national ideology of Azerbaijan is considered to be the period of the birth of the Turkic-language press in Azerbaijan and the publication of the newspaper “Akinchi” (plowman) in the last quarter of the 19th century. In our opinion, since the formation of ideas of national awakening began with the recognition by the people of their ethnic identity and the study of their historical past, the publication of “Akinchi” can be considered as an expression of the already begun national awakening. While we are talking about, since Azerbaijan was a colony of Russia, the ideas of national awakening were practically not developed and not promoted. In fact, despite all the obstacles, the work of A. Bakikhanov “Gyulyustani-Iram” (1841), which laid the foundations of Azerbaijani historiography 35 years before “Akinchi”, and in general, the work and activity of A. Bakikhanov, can be considered as the initial period of the formation of the cultural and educational movement and the ideas of national awakening.

The article, based on the materials of the personal archive of A. Bakikhanov, stored in the Institute of Manuscripts of the National Academy of Sciences, named after Muhammad Fizuli highlights the educational activities of the writer.

**Keywords:** *enlightenment, “Gulustani-Iram”, personal archive, student, teacher.*

**Айтен Иманова**

**ПРОСВЕТИТЕЛЬСКИЕ ВЗГЛЯДЫ АББАСГУЛУ АГИ БАКИХАНОВА**
**(по материалам Института Рукописей НАНА имени Мухаммеда Физули)**

Стремление каждого народа к свободе и прогрессу формируется в процессе его самопознания и на основе определенных идей направляет национальное движение. Идеи национального самосознания, возникшие как закономерное проявление этого процесса и служащие его реализации, в дальнейшем способствуют сознательному руководству национальным движением. С этой точки зрения в становлении борьбы за национальную независимость в начале XX века важную роль сыграло культурно-просветительское движение Азербайджана после захвата этих территорий Российской империей, точнее в начале XIX века.

Согласно последним исследованиям, начальным периодом становления национально-освободительного движения и национальной идеологии Азербайджана принимается период рождения в Азербайджане тюркоязычной прессы и выход в свет газеты «Акинчи» (пахарь) в последней четверти XIX века. На наш взгляд, поскольку формирование идей национального пробуждения началось с признания народом своей этнической идентичности и изучения своего исторического прошлого, издание «Акинчи» можно рассматривать как выражение уже начавшегося национального пробуждения. В тот период, о котором мы говорим, поскольку Азербайджан был колонией России, идеи национального пробуждения практически не развивались и не пропагандировались. Фактически, несмотря на все препятствия, труд А.Бакиханова «Гюлюстани-Ирам» (1841), заложивший за 35 лет до «Акинчи» основы азербайджанской историографии, да и в целом творчество и деятельность А.Бакиханова, можно рассматривать как начальный период становления культурно-просветительского движения и идей национального пробуждения.

В статье, основанной на материалах личного архива А.Бакиханова, хранящегося в Институте Рукописей НАНА имени Мухаммеда Физули, освещена просветительская деятельность писателя.

**Ключевые слова:** *просветительство, «Гюлюстани-Ирам», личный архив, учащийся, учитель.*

*(Akademik İsmayıl Hacıyev tərəfindən təqdim edilmişdir)*

**Daxilolma tarixi: İlkin variant 17.09.2024**
**Son variant 15.10.2024**